ADAU-nun ELMİ ƏSƏRLƏRİ

ISSN 2310-4104 E-ISSN2790-5799

10.30546/2790-5799.4.2024.048

# QLOBAL DƏYƏR ZƏNCİRİNDƏ BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Ramil Ələysəd oğlu Əsgərov[1]

## XÜLASƏ

**Tədqiqatın məqsədi.** Qlobal dəyər zəncirində biznes mühitinin yaxşılaşdırılması istiqamətində tədqiqatlar aparmaq, biznes mühitinin yaxşılaşdırılmasının prioritetlərini müəyyənləşdirmək və həmin prioritetlərin qlobal dəyər zəncirində rolunu və yerini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası**. Tədqiqat işinin yerinə yetirilməsi zamanı təhlil ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti**. Qlobal dəyər zənciri məhsulun istehsalçıdan istehsalakçıya çatdırılmasına qədər ki bütün proseslərin səmərəli təşkilini özündə əks etdirir. Qlobal dəyər zəncirinə daxil olan bütün sferalarda biznes mühitinin yaxşılaşdırılması istehsal edilən məhsulun rəqabətə davamlılığının yüksəldilməsinə əlverişli şərait yaratmaqla yanaşı, eyni zamanda iqtisadiyyatın şaxələndirilməsinə də xidmət edir. Bu baxımdan tədqiqatın praktik əhəmiyyəti kimi mülkiyyət mənsubiyyətindən asılı olmayaraq müəssisələrin rəqabətə davamlılığının artırılmasına biznes mühitinin yaxşılaşdırılmasını şamil etmək olar.

**Tədqiqatın nəticələri.** Qlobal dəyər zəncirinin bütün sferalarında səmərəli iqtisadi münasibətlərin formalaşdırılmasını, istehsalçıların və istehlakçıların bazardan əlçatan səviyyədə istifadə imkanlarının təmin edilməsini və biznes mühitində baş verən zərərli təzahürlərin aradan qaldırılması istiqamətlərinin müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Qlobal rəqabət mühitində qlobal dəyər zəncirinin yeri və rolu araşdırılmış, qlobal dəyər zəncirinin bütün mərhələlərində biznes mühitinin yaxşılaşdırılmasını şərtləndirən amillər müəyyənləşdirilmiş, qlobal dəyər zəncirinin mərhələlərində inkişaf etməkdə olan ölkələrdə biznes mühitinin yaxşılaşdırılmasını əngəlləyən səbəblər müəyyənləşdirilmiş və onların aradan qaldırması istiqamətləri qeyd edilmişdir.

**Açar sözlər:** qloballaşma, qlobal rəqabət mühiti, qlobal dəyər zənciri, biznes mühiti, biznes mühitinin yaxşılaşdırılması istiqamətləri, rəqabət qabiliyyəti.

## Giriş.

Dünya iqtisadiyyatı qloballaşdıqca milli iqtisadiyyatlar arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq sürətlə artmaqdadır. Dünya iqtisadiyyatının qloballaşması ölkələrarası xarici iqtisadi əlaqələrin genişləndirilməsi ilə səciyyələnməklə yanaşı, eyni zamanda hər bir ölkənin beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiyasını da genişləndirir. Bu baxımdan müasir şəraitdə qlobal dəyər zənciri dünya iqtisadiyyatının ayrılmaz tərkib hissəsini təşkil etməklə yanaşı, eyni zamanda qloballaşmanın ən mühüm meyillərindən birinə çevrilmişdir.

Qlobal dəyər zənciri ilə transmilli korporasiyalar anlayışları arasında əslində sıx əlaqə də mövcuddur. Dünya iqtisadiyyatının qloballaşması prosesi qlobal rəqabət mühitində dəyər zəncirini, məhsulun istehsalçıdan istehlakçılara çatdırılmasına qədərki bütün proseslərin səmərəli təşkilini və ölkələrin bu zəncirdə özünəməxsus paya malik olmasını səciyyələndirir. Lakin danılmaz reallıq ondan ibarətdir ki, ölkələr arasında sosial-iqtisadi bərabərsizliklər qlobal dəyər zəncirində ölkələrin tarazlı payını formalaşdırmağa imkan vermir. Nə qədər ki inkişaf etmiş ölkələr dünya bazarına daha çox sənaye məhsulları ixrac edəcəklər, qlobal dəyər zəncirində inkişaf etmiş ölkələrinin payı təbiidir ki, daha çox olacaqdır. İnkişaf etməkdə olan ölkələrin isə bu zəncirdə payı onların istehsal etdikləri xammal resurslarının dəyəri qədərdir.

Qlobal dəyər zəncirində inkişaf etməkdə olan ölkələrin xüsusi çəkisinin yüksəldilməsi, ilk növbədə biznes mühitinin yaxşılaşdırılması ilə sıx bağlıdır. Bu baxımdan dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasət, eləcə də davamlı olaraq qəbul edilən hüquqi-normativ aktlar

[1]Əsas müəllif/Corresponding author: Ramil Əsgərov," Güvənli" MMC, bölmə rəhbəri, Azərbaycan Dövlət Aqrar Universitetinin sabiq doktorantı, Gəncə şəhəri, ramil_asgarov@mail.ru, +994 77 737 77 66.

ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

və strateji yol xəritələri biznes mühitinin yaxşılaşdırılmasına və ölkənin milli iqtisadiyyatının qlobal dəyər zəncirində yeri və rolunun artırılmasına xidmət edir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə qeyd edilir ki, hazırda qlobal və regional miqyasda investisiyaların cəlb edilməsi istiqamətində rəqabət güclənir və biznesin təşviqi mexanizmləri təkmilləşdirilir. Bu sahədə aparılan islahatlar sürətləndirilməklə, regional miqyasda investisiyaların cəlbedilməsi istiqamətində ölkənin daha əlverişli mövqeyə çıxarılması planlaşdırılır. Belə ki, daha çox investisiya cəlb etməklə, həm tədiyyə balansındakı gərginlik aradan qaldırılacaq, həm də getdikcə optimallaşan dövlət investisiyaları özəl sərmayələrlə əvəzlənərək, dayanıqlı iqtisadi inkişaf təmin ediləcəkdir. Xüsusilə də xarici investisiyalarının cəlbi Azərbaycanın qlobal və regional miqyasda dəyər zəncirinə daha dərindən qoşulması üçün zəmin yaradacaqdır (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli fərmanı ilə təsdiq edilmişdir). Strateji Yol Xəritəsindən göründüyü kimi, ölkə iqtisadiyyatına gətirilən investisiyaların həcmi, eləcə də ölkə iqtisadiyyatında birgə müəssisələrin sayının artırılması, istehsal edilən məhsulların dünya bazarına çıxarılmasını şərtləndirir ki, bu da ölkənin təsərrüfat subyektləri çərçivəsində qlobal dəyər zəncirlə qoşulmasına əlveriş əlverişli şərait yarada bilir.

**Materiallar və metodlar.** Milli iqtisadiyyatın sahə və ərazi kəsimlərində biznes və investisiya cəlbediciliyinin yüksəldilməsi, ilk növbədə dayanıqlı iqtisadi artımın formalaşdırılmasına zəmin yaradır. Biznes və investisiya cəlb ediciliyinin yaxşılaşdırılması istiqamətində ən mühüm hədəflərə nail olması üçün, ilk növbədə iqtisadiyyatda biznes və investisiya mühiti təkmilləşdirilməli, bu sahədə zəruri qanunvericilik aktlarının formalaşdırılması təmin edilməlidir. Eyni zamanda müxtəlif mülkiyyət mənsublu təsərrüfat subyektləri arasında azad rəqabətin formalaşdırılmasına əlverişli şərait yaradılması, inshisarçılığın aradan qaldırılması və digər süni müdaxilələrin ləğv edilməsi iqtisadiyyatın rəqabət qabiliyyətinin və ixrac imkanlarının genişləndirilməsinə də əlverişli şərait yaradır ki, bu da dövlət dəstəyi və təşviqi mexanizminin formalaşdırılmasından bilavasitə asılıdır.

Qlobal dəyər zənciri qlobal rəqabət etmək üçün formalaşdırılmasında ən mühüm vasitələrdən biri olub, əslində inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında qarşılıqlı iqtisadi əlaqələr zəminində formalaşır (İqnatenko və b., 2017).

Qlobal dəyər zənciri anlayışı ilk dəfə dünya iqtisadiyyatında və bütövlükdə elmi dövriyyəyə 1985-ci ildə professor M.Porterin tədqiqatları ilə gətirilmişdir. Porter tərəfindən nəşr edilən "Rəqabət üstünlükləri" adlı monoqrafiyada qeyd edilir ki, kapital, əmək resurslarından istifadə edilməsi hesabına böyük bir dəyər şəbəkəsi formalaşır və bu da son məhsulun yaradılmasının ilkin resursları kimi səciyyələnir. Eləcə də həmin məhsulun bazarlara satışının həyata keçirilməsi, bütövlükdə böyük bir şəbəkənin sonuncu mərhələsi kimi xarakterizə olunur və bütün bunlar qlobal miqyasda dəyər zənciri anlayışını özündə əks etdirir. Porter əsaslandırır ki, məhsulun istehsalçıdan istehlakçılara çatdırılmasına qədərki bütün mərhələləri qlobal dəyər zəncirinin özünəməxsus səciyyəvi elementləri kimi şərtlənir və həmin elementlər arasında sıx qarşılıqlı əlaqənin yaradılması iqtisadiyyatın səmərəli fəaliyyəti baxımından önəmlidir (Portret, 2016).

Müəllifin fikirlərindən belə çıxır ki, qlobal dəyər zəncirinin formalaşması, ilk növbədə xammal istehsalından tutmuş məhsulun istehlakına qədər olan prosesləri özündə əks etdirir. Bütün bunlar məhz xammal istehsalçılarının da qlobal dəyər zəncirində iştirak payına malik olmasını səciyyələndirir. Qlobal dəyər zəncirinin formalaşması prosesinin özünəməxsus obyektiv zəruriliyi mövcuddur. Bu obyektiv zərurilik onunla şərtlənir ki, əslində XX əsrin 70-

ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

ci illərin ikinci yarısından etibarən enerji resurslarının, xüsusilə karbohidrogen resursların dünya bazar qiymətlərinin artması son nəticədə qlobal dəyər zəncirinin formalaşması üçün arqumentlərdən biri kimi şərtlənir. Belə ki, enerji resurslarının qiymətlərinin artması dünya bazarına daha çox sənaye məhsulları çıxaran istehsalçıların xərclərinin də artmasına gətirib çıxardı. Belə bir şəraitdə isə dünyanın inkişaf etmiş sənaye güclərinə məxsus olan transmilli korporasiyalar əslində müqayisəli üstünlüklər axtarmaq məcburiyyətində qaldılar. Bu rəqabət üstünlüklərinin təmin edilməsində isə inkişaf etməkdə olan ölkələr, əslində bir vasitəyə çevrildi.

Belə ki, inkişaf etmiş ölkələrdə xammal resursları ilə yanaşı, həm də ucuz işçi qüvvəsi mövcud idi. Odur ki, dünyanın inkişaf etmiş ölkələrinə məxsus transmilli şirkətlərin daha çox inkişaf etməkdə olan ölkələrə doğru meyl etməsi, başqa sözlə, öz filiallarını inkişaf etməkdə olan ölkələrdə təmərküzləşdirməsi, inkişaf etməkdə olan ölkələrin qlobal dəyər zəncirində iştirakını şərtləndirdi. Təbiidir ki, transmilli şirkətlərin öz filiallarını Cənub-Şərqi Asiya ölkələrində, o cümlədən, Çində və Hindistanda qurmaları həmin ölkələrin ucuz əmək ehtiyatlarından istifadəyə əsaslanırdı və bütün bunlar isə istər-istəməz inkişaf etməkdə olan ölkələrin qlobal dəyər zəncirində iştirakını şərtləndirirdi. Məhz bu təmayül inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Cənub-Şərqi Asiya ölkələrində, Çində və Hindistanda sürətli iqtisadi artımı doğurdu. Beləliklə, yuxarıda qeyd edilənlərdən bu qənaətə gəlmək olar ki, inkişaf etməkdə olan ölkələrin qlobal dəyər zəncirinə qoşulması prosesi dünyada baş verən konyuktur dalğalanmalarından irəli gəlsə də, eyni zamanda bütün hallarda inkişaf etməkdə olan ölkələrin də maraqlarının təmin edilməsinə xidmət etdi.

ÜTT-nin məlumatlarına görə, hələ 1998-ci ildə ABŞ-da istehsal olunan avtomobillərin maya dəyərinin yalnız 37%-i Amerikada xərclənmişdir. Avtomobillərə çəkilən xərclərin 30%-i Cənubi Koreyanın payına düşür. Dəyərin 17,5%-i Yaponiyada komputerlərin və müasir texnologiyaların alınması üçün yönəldilmiş, 7,5%-i Almaniyada həyata keçirilən dizayn üçün xərclənmiş, 4%-i Tayvan və Sinqapurda kiçik ehtiyat hissələrinin istehsalı üçün yönəldilmiş, 2,5%-i reklam və marketinq üçün Böyük Britaniya şirkətlərinə verilmiş, 1,5%-i məlumatların emalı üçün İrlandiya və Barbados şirkətlərinə xərclənmişdir (OECD, 2009).

Qlobal iqlim dəyişiklikləri və qloballaşmanın istər birbaşa, istərsə də yan təsirləri yan təsirləri dünya iqtisadiyyatında özünəməxsus konyuktur dalğalanmalarını doğurmaqla yanaşı, eyni zamanda qlobal dəyər zəncirində inkişaf etməkdə olan ölkələrin payının bu və ya digər şəkildə artmasını şərtləndirdi. Bu prosesin yaranmasına səbəb olan amillərdən biri də ekoloji fəsadların artması idi. Belə ki, inkişaf etmiş ölkələrdə sənaye müəssisələrinin fəaliyyəti zamanı təbiidir ki, ətraf mühitə karbon emissiyaları artırdı. Bu prosesin kəskinləşməsi isə həmin ölkələrdə ekoloji problemlər və ekoloji qeyri-tarazlıq doğururdu. Belə bir şəraitdə isə inkişaf etmiş ölkələr, xüsusilə məhsul istehsalı prosesində ekoloji qeyri-tarazlıq doğuran amillərin məhz inkişaf etməkdə olan ölkələrin torpaqlarına və ətraf mühitinə yönəltməyə məcbur idi. Odur ki, inkişaf etmiş ölkələrin öz transmili şirkətlərinin bu və ya digər şəkildə öz ölkələrindən nəzərə çarpacaq dərəcədə çıxararaq, inkişaf etməkdə olan ölkələrə, o cümlədən Cənub-Şərqi Asiya ölkələrinə və bəzi hallarda Afrika ölkələrinə yönəltməsi də məhz bu prosesdən irəli gəlirdi. Bundan əlavə, ABŞ işçisini Çin və Hindistan işçisi qədər ucuz əmək haqqına işlətmək mümkün deyildi. Odur ki, əslində rəqabət qabiliyyətli məhsul istehsal etmək üçün inkişaf etmiş ölkələrin transmilli şirkətlərinin inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına sızması, məhz bu tip obyektiv zərurətdən irəli gəlirdi. Qlobal dəyər zəncirinin elementləri özünü daha çox ixrac prosesində və ixracda özünəməxsus paya malik olması ilə şərtləndirirdi. Ayrı-ayrı ölkələrin ixracının strukturunda əlavə dəyərin payı aşağıdakı cədvəldə öz əksini tapmışdır.

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

**Cədvəl 1. Ayrı-ayrı ölkələrin ixracının strukturunda xarici əlavə dəyərinin payı (2020)**

| | Birinci sektor (xammal istehsalı da daxil olmaqla) | Emal sənayesi | Xidmətlər | Cəmi |
|---|---|---|---|---|
| ABŞ | 4.1 | 5.0 | 5.9 | 15.0 |
| Almaniya | 4.1 | 8.6 | 12.8 | 25.5 |
| Yaponiya | 4.9 | 5.3 | 5.4 | 15.6 |
| Koreya | 14.7 | 12.1 | 14.9 | 41.7 |
| Hindistan | 9.6 | 4.7 | 9.7 | 24.0 |
| Meksika | 3.5 | 15.6 | 12.7 | 31.8 |
| Malayziya | 7.7 | 15.1 | 17.8 | 40.6 |

(Mənbə: https://www.wto.org/english/res_e/statis_e/miwi_e/countryprofiles_e.htm).

Cədvəldən göründüyü kimi, dünya iqtisadiyyatında baş verən konyuktur dalğalanmalar, eləcə də ekoloji problemlər, inkişaf etməkdə olan ölkələrdə ucuz işçi qüvvəsinin mövcudluğu və ən nəhayət dünya karbohidrogen resursları bazarında baş verən qiymət dalğalanmaları nəticə etibarı ilə əksər inkişaf etməkdə olan ölkələrin, xüsusilə iqtisadiyyatın birinci və emal sektorlarında payının nəzərə çarpacaq dərəcədə artmasına gətirib çıxarmışdır. Məsələn, ixracın strukturunda əlavə dəyər zəncirinin payında ilkin sektor ABŞ-da 4,1% paya malik olmuşdursa, Hindistanda bu göstərici 9,6%, Koreyada 14,7%-ə çatmışdır. Bu, ilk növbədə xammal resurslarının və ucuz işçi qüvvəsinin payı ilə əlaqədardır. Emal sənayesinə gəldikdə, ABŞ-ın bu sahədə payı 5%, Almaniyanın 8,6% olduğu halda, Koreyada emal sənayesinin sürətli inkişafına nail olunmaqdadır. Bu göstərici Meksikada və Malaziyada da müşahidə edilmişdir. Xidmətlər sektoruna gəldikdə isə Malayziyanın bu sahədəki payı daha çox yüksəlməkdədir. Bu isə ilk növbədə XX əsrin sonu, XXI əsrin əvvəllərində Malayziyada postsənaye cəmiyyətinin inkişafı ilə sıx bağlıdır. Digər Asiya ölkələri kimi Koreyada da müşahidə olunmuşdur. Hisdistanda isə bu göstərici o qədər də yüksək olmamışdır.

Beləliklə, cədvəlin məlumatlarını ümumiləşdirsək, belə qənaətə gəlmək olar ki, ixracın strukturunda əlavə dəyərin payı Malaziyada daha yüksək xüsusi çəkiyə (40,6%), Meksikada 31,8%, Hindistanda 24%, Koreyada 41,7% olmuşdur. İnkişaf etmiş ölkələrdə isə bu göstərici nəzərə çarpacaq dərəcədə aşağıdır. Məsələn, ən aşağı göstərici ABŞ-da (15%) qeydə alınmışdır. Bu onunla bağlıdır ki, ABŞ öz müəssələrinin əksəriyyətini Hindistana, Çinə, Meksikaya və digər ölkələrə keçirə bilmişdir. Bu da daha çox ekoloji problemlərin ABŞ-a təsir etməməsi, eləcə də həmin ölkələrin ucuz işçi qüvvəsindən istifadə edilməsi ilə sıx bağlıdır.

Aparılan araşdırmalar göstərir ki, qlobal dəyər zəncirində bu və ya digər ölkənin iştirakının səmərəliliyinin səciyyələndirən ən mühüm məqamlardan biri ondan ibarətdir ki, həmin ölkələrdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Daha doğrusu, biznes mühiti kifayət qədər əlverişli xarakter daşıyır və əmtəə istehsalçılarının bütövlükdə iqtisadi resurslara çıxış imkanları geniş şəkildə təmin edilir. Bütün bunlar isə iştirakçı tərəflərə, xüsusilə inkişaf etməkdə olan ölkələrin təsərrüfat subyektlərinə bu prosesdən yararlanmaq imkanı verir. Məsələ burasındadır ki, inkişaf etmiş ölkələrdə biznes mühitinin əlverişli olması qəbul ediləndir və bu uzunmüddətli prosesin nəticəsi kimi formalaşmışdır. Odur ki, qlobal dəyər zəncirində inkişaf etmiş ölkələrin iştirakı son nəticədə onların rəqabət qabiliyyətli məhsul istehsal etməsini şərtləndirir. Lakin son

ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

istehlakçılara fayda gətirməsi prosesinə gəldikdə isə bu prosesdə biznes mühitinin yaxşılaşdırılmasını təmin edən ölkələr bu və ya digər şəkildə faydalar əldə edə bilirlər. Müasir şəraitdə qlobal dəyər zəncirində iştirak edən ölkələrin, o cümlədən təsərrüfat subyektlərinin qarşısında duran ən mühüm problemlərdən biri, ilk növbədə, onların informasiya kommunikasiya resursları sisteminə sərbəst çıxış imkanlarının təmin edilməsidir. Məhz informasiya kommunikasiya sistemlərinə çıxış imkanına malik olan, eləcə də təsərrüfat fəaliyyətini məhz postsənaye cəmiyyətinin inkişafı istiqamətinə inteqrasiya edən ölkələr bu prosesdən daha çox gəlir əldə edə bilirlər. Bütün bunlar isə inkişaf etməkdə olan ölkələrdə xidmət sektorunun inkişaf etdirilməsini, eləcə də informasiya texnologiyalarından daha çox səmərə əldə etmələrini şərtləndirir (Interconnected Economies Benefiting from Global Value Chains. Synthesis Report, 2013).

Dünya iqtisadiyyatında baş verən müasir meyillərin təhlili belə qənaətə gəlməyə əsas verir ki, inkişaf etməkdə olan ölkələrin qlobal dəyər zəncirində iştirak imkanlarının genişləndirilməsi və bu prosesdən fayda əldə etmələri üçün ən başlıca şərt həmin ölkələrin hökumətləri tərəfindən biznes mühitinin yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərin genişləndirilməsi, elmi tədqiqat və mühəndislik kimi aktivlərə investisiyaları stimullaşdırmaqdan və müasir texnologiyaların inkişafını tətbiq etməklə, modern iqtisadiyyatın dəstəklənməsi istiqamətində dövlət siyasətini qurmaqdan ibarətdir. İnkişaf etməkdə olan ölkələrin təcrübəsindən çıxış etdikdə belə qənaətə gəlmək olar ki, az gəlirli ölkələrin qlobal dəyər zəncirində iştirak imkanlarını məhdudlaşdıran ən mühüm məqamlardan biri həmin ölkələrdə fəaliyyət göstərən təsərrüfat subyektlərində infrastruktur sisteminin yetərincə inkişaf etməməsi və eləcə də biznes mühitində problemlərin yaranması ilə bağlıdır. Başqa sözlə, az gəlirli ölkələrdə biznes mühiti kifayət qədər problemlərlə səciyyələnir və əmtəə istehsalçılarının təsərrüfat fəaliyyətində müxtəlif formada inhisarçılıq meyilləri mövcuddur (Trade in Value Added (TIVA) Database 2018).

İnkişaf etməkdə olan ölkələrdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində infrastruktur sisteminə çıxış imkanlarının genişləndirilməsini, eləcə də əmtəə istehsalçılarının iqtisadi resurslardan səmərəli istifadə edilməsini nəzərə aldıqda, hesab etmək olar ki, Azərbaycan Respublikasında bu istiqamətdə son illər kifayət qədər geniş tədbirlər həyata keçirilməkdədir. Belə ki, lisenziyalaşdırma ilə bağlı proseslər bu və ya digər şəkildə məhdudlaşdırılmış, əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun gücləndirilməsi istiqamətində zəruri dövlət proqramları və strateji yol xəritələri qəbul olunmaqdadır.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli 1138 saylı fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektiv üzrə Strateji Yol Xəritəsi”ndə qeyd edilir ki, ölkədə sahibkarlığın inkişafı, onun rəqabət qabiliyyətinin artırılması istiqamətində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun cəlbedici biznes və investisiya mühitinin yaxşılaşdırılması və əlverişliliyin daha da artırılması, bu sahədə mütərəqqi tənzimləmə və hüququ bazan olması ən vacib məsələlərdir. Göstərilən hədəflərə nail olmaq üçün dövlət tərəfindən ardıcıl olaraq, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilənin və süni maneələrin aradan qaldırılması, rəqabət qabiliyyətliliyinin və ixrac imkanlarının genişləndirilməsi, sahibkarlara dövlət dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, beynəlxalq standartlara uyğun elektron dövlət xidmətlərinin göstərilməsi sahəsində kompleks tədbirlər həyata keçirilmişdir (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi).

ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

Strateji yol xəritəsində qeyd edilən situasiyanı qiymətləndirərkən, tamamilə haqlı olaraq belə qənaətə gəlmək olar ki, ölkədə makroiqtisadi səviyyədə biznes mühitinin yaxşılaşdırılması və bütövlükdə ixracın təşviqi, eləcə də resurs imkanlarından səmərəli istifadə edilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmiş, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində silsilə dövlət proqramları qəbul edilmişdir. Lakin bununla belə, iqtisadiyyatın sahə və ərazi kəsimlərində vəziyyət tarazlı şəkildə inkişaf etmir. Əslində, bu prosesin özünəməxsus obyektiv səbəbləri də mövcuddur. Belə ki, iqtisadiyyatın neft-qaz sektorunda əldə edilən iqtisadi artım bu sahəyə yönəldilən investisiyaların həcmindən də bilavasitə asılıdır. Məlum olduğu kimi, iqtisadiyyatın digər sektorları ilə müqayisədə neft-qaz sektoruna, daha doğrusu, karbohidrogen resurslarının istehsalına və ixracına yönəldilmiş investisiyalar ölkə iqtisadiyyatına yatırılan investisiyaların strukturunda daha yüksək xüsusi çəkiyə malikdir. Məhz problemə bu aspektdən yanaşdıqda, qeyri-neft sektorunun inkişaf etdirilməsinə yönəldilmiş tədbirlər məhz obyektiv səbəblərdən müəyyən mənada geri qalmaqdadır. Bu prosesin yaranmasını şərtləndirən amillərin əslində, özü də obyektiv səbəblərdən irəli gəlir. Belə ki, iqtisadiyyata yönəldilən investisiyalar daha çox karbohidrogen resursları sektoruna yönəldilir. Bu isə həmin sektorun cəlbediciliyi və dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynaması ilə bağlıdır. Qeyri-neft sektorun inkişafına gəldikdə isə bu sahədə önəmli rol oynayan kənd təsərrüfatı və aqrar sahə təbii iqlim şəraitindən bilavasitə asılı olduğundan, bu sahəyə investisiyaların yönəldilməsi üçün o qədər də mümkün şərait, daha doğrusu reallıq mövcud deyildir. Bu baxımdan hesab etmək olar ki, dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemində qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının sürətli inkişafına nail olunması təmin edilməlidir ki, bu da qlobal dəyər zəncirində sahənin rolunu artıra bilər.

Dünya iqtisadiyyatında qlobal dəyər zəncirində inkişaf etməkdə olan ölkələrin payını şərtləndirən ən mühüm amillərdən biri kimi biznes mühitinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin roluna xüsusi diqqət yetirilsə də, fikrimizcə bu sahədə fərqli məqamlar da mövcuddur. Bu fərqli məqamlar ondan ibarətdir ki, əslində inkişaf etməkdə olan ölkələrin qlobal dəyər zəncirində iştirak payının son illər güclənməsi və eləcə də inkişaf etməkdə olan ölkələrin bu prosesdən özünəməxsus fayda götürməsi, təkcə biznes mühitinin yaxşılaşdırılması istiqamətində gerçəkləşdirilən tədbirlərlə bağlı deyil. Fikrimizcə, digər amillərə də daha çox diqqət yetirilməlidir. Bu məqam ondan ibarətdir ki, qlobal dəyər zəncirində inkişaf etməkdə olan ölkələrin payı Sinqapur, Malayziya və Tayland istisna olmaqla, digər ölkələrdə, o cümlədən Çin və Hindistanda tamamilə fərqli meyarlar üzərində formalaşmaqdadır. Belə ki, Sinqapur, Malayziya və Taylandda informasiya texnologiyaları surətlə inkişaf etməkdədir və həmin ölkələr artıq bu sahədə öz mövqelərini gücləndirirlər ki, hətta ABŞ belə avtomobil sənayesinde əlavə dəyərin qlobal dəyər zəncirindəki payını həmin ölkələrlə bölüşmək məcburiyyətində qalır. Təbii ki, adı çəkilən ölkələrin, daha doğrusu, Sinqapurun, Malaziyanın və Taylandın elektronika sənayesində surətli inkişafı baxımından əldə edilir. Lakin fikirimizcə, Hindistanda bu təmayül bu adekvat deyil. Doğrudur, etiraf etmək lazımdır ki, Çində tamamilə başqa təmayüllər mövcuddur. Bu təmayüllərin mövcudluğu, ilk növbədə, onunla bağlıdır ki, Çində tullantılardan məhsul istehsal edilməsi prosesi nəticə etibarı ilə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində önəmli rol oynayır və bu proses istehsal edilən məhsulun maya dəyərinin bu və ya digər şəkildə ucuz başa gəlməsinə də şərtləndirir. Lakin Hindistanda isə tamamilə fərqli mövqelər var. Lakin bununla belə, Çin və Hindistanın qlobal dəyər zəncirində iştirak payının yüksək olmasının bəzi ümumiləşdirilmiş məqamları vardır ki, bunu qərb müəllifləri öz tədqiqatlarında da təsdiq edir. Belə ki, Çin və Hindistan əhalinin sayına görə dünyanın iki ən böyük ölkəsi olduğundan,

ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

istehsal sənayesində bir çox transmilli korporasiyalar həmin ölkələrə öz mallarını satmaq istiqamətində zəruri tədbirlər həyata keçirirlər və dünyada məşhur, xüsusilə inkişaf etmiş etmiş ölkələrdəki transmilli korporasiyalar həmin ölkələri özünün bazarları kimi qəbul edirlər (Stringer və Ge, 2010).

Odur ki, müəlliflərin qeyd etdiyi fikirlərdən belə qənaətə gəlmək olar ki, əslində qlobal dəyər zəncirində Hindistanın iştirak payının son illər artması bütövlükdə transmilli korporasiyaların öz məhsullarını bu bazarlarda satması ilə sıx bağlıdır. Transmilli korporasiyaların istehsal etdikləri məhsulların özünəməxsus səciyyəvi xüsusiyyətləri mövcuddur. Belə ki, transmilli korporasiyalar inkişaf etmiş ölkələr üçün daha çox keyfiyyətli məhsullar istehsal edirlər, o cümlədən, ekoloji təmiz məhsullar da bu qəbildəndir və həmin məhsulların qiymətləri də kifayət qədər yüksəkdir. Təbii ki, bu zaman inkişaf ölkələrin əhalisinin alıcılıq qabiliyyətinin yüksək olması nəzərə alınır. Lakin transmilli korporasiyaların Çin və Hindistan, eləcə də digər inkişaf etməkdə olan ölkələrin əhalisinin tələbatına uyğun olaraq istehsal etdikləri məhsullar o qədər də yüksək keyfiyyətli olmamaqla, eyni zamanda ekoloji cəhətdən təmiz də deyil. Bu zaman geni dəyişdirilmiş məhsulları daha çox üstünlük verilir. Geni dəyişdirilmiş məhsulların istehsalı prosesində isə məhsuldarlıq amili daha mühüm rol oynadığından, bu zaman məhsulların çəkilən xərclərin aşağı olması təmin edilir və təbii ki inkişaf etməkdə olan ölkələrin, o cümlədən, Çin və Hindistanın bazarında kifayət qədər qiymət əlçatanlığına malikdir.

Tədqiqatlar göstərir ki, oxşar tendensiya Cənubi Amerika ölkələrində də müşahidə edilmişdir. Cənubi Amerika ölkələrində kənd təsərrüfatı məhsullarına artan tələbat, ilk növbədə, iqlim şəraitinin əlverişsiz keçməsi və digər bu kimi amillərdən qaynaqlanır. Məhz bütün prosesləri nəzərə alan Yeni Zelandiyanın kənd təsərrüfatı holdingləri bu bölgəyə fəal şəkildə daxil olmaq üçün sərmayə qoyuluşları həyata keçirir və bu zaman qida zəncirində öz paylarını artırır. Eyni zamanda digər ölkələrə fəal şəkildə ərzaq ixracı həyata keçirirlər.

Oxşar təmayülləri dünyanın digər inkişaf etməkdə olan ölkələrində də müşahidə etmək mümkündür. Bu isə həmin ölkələrin qlobal dəyər zəncirində payının yüksəlməsini şərtləndirir. Məsələn, Dünya Bankının araşdırmalarından belə qənaətə gəlinir ki, son illər, o cümlədən, XXI əsrin əvvəllərindən etibarən Banqladeşdə tekstil sənayesinin inkişafı, o cümlədən, geyim ixracının həcmi əhəmiyyətli dərəcədə artmaqdadır. Bu isə onunla bağlıdır ki, toxuculuq və geyim sənayesində beynəlxalq şirkətlər həmin ölkələrə investisiya qoyurlar və bu da istehsal prosesinin həmin ölkədə yerləşməsini şərtləndirmişdir. Başqa sözlə desək, Banqladeşdə geyim istehsalının əlverişli olması, ilk növbədə, həmin ölkələrdə bu sənayedə iştirak edən işçilərin daha ucuz qiymətə işləməsi ilə bağlıdır. Təkcə bir faktı qeyd etmək olar ki, Banqaladeşdə tekstil sənayesində işləyən qadınların orta əmək haqqı Çin, Hindistan və Vyetnamdan daha aşağı səviyyədədir (World Development Report 2020).

Dünya bankının hesabatından belə qənaətə gəlmək olar ki, əslində transmilli korporasiyalar üçün cəlbedici məqam, ilk növbədə, ucuz işçi qüvvəsidir. Məsələn, əgər Çində, Hindistanda və Vyetnamda ucuz işçi qüvvəsi yoxdursa, onda adı çəkilən şirkətlər öz filiallarını daha ucuz işçi qüvvəsi ilə işləyən ölkələrə yönəldirlər. Belə bir şəraitdə isə bu əslində dünyada sosial-iqtisadi qeyri-bərabərliyi dərinləşdirməklə yanaşı, eyni zamanda ən zəif ölkələrin belə qlobal dəyər zəncirində iştirak payının yüksəlməsini şərtləndirir. Məhz adı çəkilən amil, əslində bu və ya digər şəkildə bu prosesdən nisbi şəkildə yararlanmağın bir forması kimi də dəyərləndirilə bilər. Başqa sözlə, Çin və Hindistan qlobal dəyər zəncirində iştirak etməklə, bu və ya digər şəkildə iqtisadi artımlarına nail ola bilmişlər. Məhz bunun nəticəsində adı çəkilən ölkələrdə iqtisadi artım səbəbindən əmək haqqının səviyyəsi də yüksəlmişdir. Lakin Banqladeşdə isə bu situaisya aşağıdır. Deməli, Banqladeşdə iqtisadi

ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

artımın aşağı olması səbəbindən ucuz işi qüvvəsinin sayı çoxdur və bu zaman təbii ki transmilli korporasiyalar öz istiqamətlərini məhz həmin ölkəyə yönəldəcəkdir. Başqa sözlə desək, növbəti dalğa digər zəif iqtisadi artıma malik, ucuz işçi qüvvəsinə malik ölkələrə yönələ bilər.

Qlobal dəyər zəncirində iştirak payına gəldikdə, inkişaf etməkdə olan ölkələri bu sahədə təsnifləşdirmək daha doğru olardı. Fikrimincə, inkişaf etməkdə olan ölkələrdə işçi qüvvəsinin ixtisaslaşma səviyyəsi, daha doğrusu, yüksək ixtisaslı işçi qüvvəsinin mövcudluğu baxımından fərqlər məhz onların qlobal dəyir zəncirində iştirak payı ilə sıx bağlıdır. Maraqlıdır ki, inkişaf etməkdə olan ölkələr qlobal dəyər zəncirində məhz ucuz işçi qüvvəsi olması ilə çıxış edir. Bunu Çinin, Hindistanın, Banqladeşin və digərlərinin timsalında əyani şəkildə izah etmək mümkündür. Lakin bununla belə, digər ölkələrin, o cümlədən, Taylandın, Filippinin, Sinqapurun və digərlərinin qlobal dəyər zəncirində iştirak payının son illər yüksəlməsi isə son nəticədə həmin ölkələrdə ixtisaslı işçi qüvvəsinin mövcud olduğu səbəbindən meydana çıxır. Hesab etmək olar ki, bu qrupa Türkiyəni, eləcə də Latın Amerikası ölkələrinin bəzilərini də aid etmək olar. Xüsusilə, Meksikada bu təmayül daha da yüksəlməkdədir. Eləcə də Filippində də bu təmayüllər mövcuddur. Beləliklə, yuxarıda qeyd edilən araşdırmalardan tamamilə haqlı olaraq belə qənaətə gəlmək olar ki, əgər Çin, Hindistan, Banqladeş, Vyetnam bu və ya digər şəkildə qlobal dəyər zəncirində ucuz işçi qüvvəsinə malik insanlara sahib olan ölkə kimi çıxış edirlərsə, Tayland, Filippin, Malayziya və Sinqapur isə daha çox yüksək ixtisaslı işçi qüvvəsi hesabına bu prosesdə iştirak edir. Adı çəkilən ölkələrdə komputer sənayesinin inkişaf etməsi, eləcə də informasiya texnologiyalarının tətbiq edilməsi prosesinin yüksək səmərəliliyə malik olması və eləcə də rəqabət qabiliyyətinin artması bu ölkələr üçün tamamilə başqa bir mənzərə formalaşdırmaqdadır. Bu mənzərə isə ondan ibarətdir ki, adı çəkilən ölkələr, o cümlədən, Sinqapur, Malayziya, Tayland, Filippin və digərləri bütövlükdə qlobal dəyər zəncirində, həm də biznes mühitinin yaxşılaşdırılmasına malik olduqları üçün fərqlənirlər. Bu baxımdan qlobal dəyər zəncirində daha yüksək yer tuturlar. Təsadüf deyildir ki, Sinqapur biznes reytinqi üzrə dünya sıralamasında önəmli yerə malik olmaqdadır.

Qeyd etmək lazımdır ki, Dünya Bankı tərəfindən biznes fəaliyyətinin həyata keçirilməsi ilə bağlı dünya ölkələrinin reytinq sıralaması müəyyənləşdirilir və bu sıralama 10 nəzarət indikatoru üzrə həyata keçirilir ki, bu indikatorlara aşağıdakıları şamil etmək olar: -müəssisələrin qeydiyyatdan keçməsi prosesi; -tikintiyə icazə alınması prosesi; -elektrik təchizatı sisteminə qoşulma prosesi; -mülkiyyətin qeydiyyatdan keçirilməsi prosesi; -kreditləşdirmə; -investorların müdafiəsi; -vergiqoyma; -beynəlxalq ticarət; -kontraktların icra təminatı; -məsələrin ləğv olunma proseduru (World Bank Group, 2020).

Dünya Bankının müəyyənləşdirmələrinə görə biznes fəaliyyətinin asanlığı üzrə ölkələrin reytinq sıralamasında Yeni Zelandiya, Sinqapur, Honkong, Danimarka ilkin yerləri tutmaqdadır. Dünya biznes fəaliyyətinin asanlıq üzrə dünya ölkələrinin reytinq sıralamasında ilk 15 ölkənin yeri aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 2. Biznes fəaliyyətinin həyata keçirilməsi üzrə dünya ölkələrinin reytinq sıralaması**

| № | Ölkə | №1 | №2 | №3 | №4 | №5 | №6 | №7 | №8 | №9 | №10 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Yeni Zelandiya | 1 | 7 | 48 | 2 | 1 | 3 | 9 | 63 | 23 | 36 |
| 2 | Sinqapur | 4 | 5 | 19 | 21 | 37 | 3 | 7 | 47 | 1 | 27 |
| 3 | Honkonq | 5 | 1 | 3 | 51 | 37 | 7 | 2 | 29 | 31 | 45 |
| 4 | Danimarka | 45 | 4 | 21 | 11 | 48 | 28 | 8 | 1 | 14 | 6 |

ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 5 | Cənubi Koreya | 33 | 12 | 2 | 40 | 67 | 25 | 21 | 36 | 2 | 11 |
| 6 | ABŞ | 55 | 24 | 64 | 39 | 4 | 36 | 25 | 39 | 17 | 2 |
| 7 | Gürcüstan | 2 | 21 | 42 | 5 | 15 | 7 | 14 | 45 | 12 | 64 |
| 8 | Böyük Britaniya | 18 | 23 | 8 | 41 | 37 | 7 | 27 | 33 | 34 | 14 |
| 9 | Norveç | 25 | 22 | 44 | 15 | 94 | 21 | 34 | 22 | 3 | 5 |
| 10 | İsveç | 39 | 31 | 10 | 9 | 80 | 28 | 31 | 18 | 39 | 17 |
| 11 | Litva | 34 | 10 | 15 | 4 | 48 | 37 | 18 | 19 | 7 | 89 |
| 12 | Malayziya | 126 | 2 | 4 | 33 | 37 | 2 | 80 | 49 | 35 | 40 |
| 13 | Mavriki | 20 | 8 | 28 | 23 | 67 | 18 | 5 | 72 | 20 | 28 |
| 14 | Avstraliya | 7 | 11 | 62 | 42 | 4 | 57 | 28 | 106 | 6 | 20 |
| 15 | Tayvan | 21 | 6 | 9 | 20 | 104 | 21 | 39 | 61 | 11 | 23 |

**(Mənbə: Рейтинг стран мира по индексу ведения бизнеса,World Bank Group, 2020 əsasında müəllif tərəfindən tərtib edilmişdir).**

Cədvəldən göründüyü kimi, Dünya Bankının müəyyənləşdirdiyi reytinq sıralamasında Yeni Zelandiya, Sinqapur, Honkong, Danimarka, Cənubi Koreya, ABŞ, Gürcüstan, Böyük Britaniya, Norveç və İsveç ilk onluqda önəmli rol oynuyur. Adı çəkilən ölkələrdə biznes fəaliyyətinin həyata keçirilməsi prosesi biznes asanlığının yüksək olması ilə şərtlənir. Adı çəkilən sıralamada Azərbaycan 34-cü yeri tutmuşdur. Qeyd edək ki, bu sıralamada 190 ölkə yer alır və 186-cı yeri Liviya, 187-ci yeri Yəmən, 188-ci yeri Venesuela, 189-cu yeri Eritreya, 190-cı yeri isə Somali tutur.

Yeni Zelandiya, Sinqapur, Honkong, Danimarka, İsveç və digər ölkələrin biznes fəaliyyətinin həyata keçirilməsi ilə bağlı beynəlxalq reytinq sıralamasında ön yerdə olmaları həmin ölkələrdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlərin həyata keçirilməsi ilə şərtlənməklə yanaşı, eyni zamanda rəqəmsal ticarətin və rəqəmsal iqtisadiyyatın inkişafına əlverişli şərait yaradılması ilə də sıx bağlıdır. İqtisad elmlər doktoru A.F.Abbasov qeyd edir ki, artıq rəqəmsal iqtisadiyyatın formalaşdığı müasir şəraitdə "kapitalsız" kapitalizm cəmiyyəti formalaşmağa başlamışdır. Elektron hökümətin yaradılması, elektron iqtisadiyyatın və postsənaye cəmiyyətinin formalaşdırılması istiqamətində zəruri tədbirlərin gerçəkləşdirilməsi dünya iqtisadiyyatında mühüm keyfiyyət dəyişiklikləri kimi xarakterizə olunur. Liberal iqtisadi münasibətlər sistemini müdafiə edən iqtisadi dairələrin nümayəndələri hesab edirlər ki, qloballaşma prosesi elə bir iqtisadi sistemi nəzərdə tutur ki, bu iqtisadi sistem dünya ölkələrinin hər birində özünəməxsus şəkildə müsbət təzahürlər doğuracaqdır. Lakin bütün bunlara baxmayaraq, təsərrüfat fəaliyyətinin həyata keçirilməsində kapital resusrlarının rolu da danılmazdır. Bu prosesi beynəlxalq miqyasda ABŞ valyutası tənzimləyirsə, aksiyoma ondan ibarətdir ki, qloballaşma prosesi ABŞ-ın maraqlarının reallaşdırılmasına yönəlir. İnkişaf etmiş ölkələrdə ixracın strukturunda elm və kapitaltutumlu məhsulların xüsusi çəkisinin yüksəldilməsi bu məhsulların ticarətindən inkişaf etmiş ölkələrin daha çox gəlir əldə etməsini şərtləndirir (Abbasov, 2024)

Müəllifin qeyd etdiyi argumentləri əsas tutaraq belə qənaətə gəlmək olar ki, inkişaf etmiş ölkələr ixracın strukturunda elm və kapital tutumlu məhsulların xüsusi çəkisinin yüksək olması kimi üstünlüklərdən istifadə edir və nəticədə dövlət büdcəsinə daha çox valyuta daxil olmalarına nail olurlar. Bununla yanaşı, inkişaf etməkdə olan ölkələrdə isə ixracın strukturunda iqtisadiyyatın əsaslaşma istiqamətinə müvafiq olaraq, daha çox xammal resursları üstünlük təşkil edir. Hazır məhsulun xüsusi çəkisi isə nəzər çarpacaq dərəcədə aşağıdır. Odur ki, inkişaf etməkdə olan ölkələrin qlobal dəyər zəncirinə qoşulması və biznes

ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

mühitinin yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən həyata keçirilən səmərəli tədbirlər kompleksinə daha çox ehtiyac duyulur.

Qloballaşma şəraitində dünya iqtisadiyyatında baş verən inkişaf meylləri təhlil edib belə qənaətə gəlmək olar ki, müasir inkişaf meyilləri, o cümlədən, bərpa olunmayan enerji resurslarından bərpa olunan enerji resurslarından keçid prosesləri də qlobal dəyər zəncirinə öz təsirini göstərməkdədir. Bu prinsi həm də əmtəə istehsalçıları üçün biznes mühitinin əlçatanlığı prosesinə də öz təsirini göstərir. Nəzərə almaq lazımdır ki, iqlim problemləri və təhdidlərin artdığı müasir şəraitdə biznes subyektləri bütün sahələrdə, o cümlədən, qlobal dəyər zəncirində davamlı inkişafa nail olmaq üçün əsas vasitə kimi yaşıl iqtisadiyyat konsepsiyasına daha çox diqqət yetirirlər. Məlum olduğu kimi, davamlı inkişaf əsas etibarı ilə 3 əsas tərkib elementindən - iqtisadi səmərəlilik, sosial ədalət və ekoloji tarazlıq prinsiplərinə əsaslanır. Bu baxımdan yaşıl iqtisadiyyatın formalaşdırılmasına istiqamətlənmiş tədbirlər həm də işlədirlər həm məhsuk istehsalına çəkilən xərclərin azaldılmasını, eləcə də ətraf mühitə dəyən zərərlərin aradan qaldırılmasını özündə ehtiva edir (Belova və b., 2021). Hesab etmək olar ki, müəlliflərin irəli sürdüyü arqumentlər prinsip etibarilə yaşıl iqtisadiyyatın formalaşdırılmasında yeni idarəçilik prinsiplərinin nəzərə alınmasına da gətirib çıxaracaqdır.

Təhlillər göstərir ki, müasir biznesdə yaşıl iqtisadiyyatın tələblərinin nəzərə alınması prosesi həm ekoloji problemlərin həllinə, həm də ətraf mühitə münasibətin dəyişməsinə istiqamətlənir. Təsadüfi deyildir ki, son zamanlar iri şirkətlər ətraf mühit üçün ən təhlükəli olan plastik tullantıların həcminin azaldılmasına yönəldilmiş qlobal təşəbbüslərlə də çıxış edirlər. Məsələn, “Little”, “Tesco”, “Carrefour” və başqa digər beynəlxalq şirkətlər tam təkrar emal edilə bilən məhsullardan istifadə etməyi ön plana çəkiblər və bu da, ilk növbədə, qablaşdırma proseslərində daha çox özünü büruzə verir. Eyni zamanda Avropa Birliyinə daxil olan ölkələrdə plastikdən hazırlanmış məhsulların istifadəsinə bu və ya digər məhdudiyyətlər və qadağalar da tətbiq edilməkdədir (Prudnikova, Mudreçov, 2020).

Məhz bu aspektdən çıxış edib, hesab etmək olar ki, əslində, qloballaşma prosesinin dərinləşdiyi müasir şəraitdə yaşıl iqtisadiyyatın fundamental əsaslarının formalaşdırılması qlobal dəyər zəncirinin tərkibində yaşıl dəyər zəncirini də formalaşdırır. Yaşıl dəyər zənciri sosial və ekoloji amillərin yaxşılaşdırılmasını, ətraf mühitdə mənfi təsirlərin azaldılması üçün tərəfdaşların inteqrasiya olunmuş şəbəkəsini özündə əks etdirir.

Aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, dünyanın inkişaf etmiş ölkələri istehsal prosesində daha çox karbon qazlarını ətraf mühitə ixrac edirlər. Bu da karbon qazları emissiyalarında artımın yaranmasına gətirib çıxarır. İqtisadi fəaliyyətin genişlənməsi, eləcə də sənaye məhsulları istehsalının həcminin artması ətraf mühitə antropogen təsirlərin güclənməsini də özündə ehtiva edir. Əgər XX əsrin əvvəllərində ətraf mühitə tullantıların 90%-i Avropa və ABŞ tərəfindən gerçəkləşdirilirdisə, əsrin ortalarında bu pay, yəni ətraf mühitə tullantılar ildə təxminən 85 %-ə bərabər olmaqdadır. Hazırda inkişaf etmiş ölkələrin daha çox rəqabət qabiliyyətli məşğul istehsal etməyə yönəlməsi məhz ucuz işçi qüvvəsindən istifadə və eyni zamanda aşağı karbonlu enerji mənbələrinin tətbiqi ilə bağlı prosesləri də özündə ehtuva edir. Bundan əlavə, məhz ətraf mühitin qorunmasını təmin etmək məqsədi ilə aşağı karbonlu enerji mənbələrindən istifadə prosesləri dövriyyəyə gəlmişdir. Bu baxımdan istehsal edilən məhsulların inkişaf etmiş ölkələrdən inkişaf etmiş etməkdə olan ölkələrin iqtisadiyyatına ixracı ilə əlaqədar inkişaf etmiş ölkələrdə emissiyaları həcmi də azalmağa başlamışdır (Distribution of greenhouse gas emissions worldwide in 2022).

2022-ci ildə dünyanın inkişaf etmiş ölkələri tərəfindən ətraf mühitə buraxılan karbon emisiyalarının xüsusi çəkisi aşağıdakı şəkildə göstərilmişdir.

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

**Şəkil 1. 2022-ci ildə dünyanın inkişaf etmiş ölkələri tərəfindən ətraf mühitə iri həcmli karbon qazı emissiyaları.**




**Mənbə**: Distribution of greenhouse gas emissions əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Şəkildən göründüyü kimi, 2022-ci ildə ətraf mühitə ən çox karbon emissiyaları Çində gerçəkləşmişdir (29,2%). Bu göstərici ABŞ-da 11,2 %-ə, Hindistanda 7,3 %-ə, Avropa Birliyinə daxil olan ölkələrdə 6,7 %-ə, Rusiyada 4,8 %-ə, Braziliyada isə 2,4 %-ə bərabər olmuşdur. Məhz bütün bunlar onu göstərir ki, qlobal dəyər zəncirində yaşıl iqtisadiyyatın formalaşdırılması yaşıl dəyər zəncirini də formalaşdırmağa məcburdur ki, bu da ətraf mühitə zərərlərin azaldılmasını, eləcə də ətraf mühitə vurulan zərərlərin bu və ya digər formada kompensasiya edilməsini, tullantılardan təkrar emal proseslərinin həyata keçirilməsini özündə əks etdirməkdə yaşıl iqtisadiyyata əhəmiyyətli töhfə verə bilər.

**Yekun.** Qlobal dəyər zənciri bütövlükdə dünyanın bütün ölkələrində məhsul istehsalı prosesindən istehlakçılara çatdırılmasına qədərki bütün mərhələlərdə yaranan əlavə dəyəri özündə əks etdirir. Qloballaşma prosesinin dərinləşməsi ilə əlaqədar olaraq, qlobal dəyər zəncirinin strukturunda inkişaf etməkdə olan ölkələrin payı da artmaqdadır. İnkişaf etməkdə olan ölkələrin bir hissəsi, o cümlədən Çin və Hindistan daha çox əhali sayı olduqlarına görə, eləcə də Çin tullantıların təkrar emalı ilə bağlı proseslərdə iştirak etdiyinə görə daha çox töhfə verirlər. Bundan əlavə, digər Asiya ölkələrində isə ucuz işçi qüvvəsinin mövcudluğu məhz həmin ölkələrin qlobal dəyər zəncirində payının yüksəlməsinə gətirib çıxarır. Sinqapur, Malayziya, Koreya və digər ölkələr isə informasiya texnologiyaları sahəsində önəmli rol aldıqlarından, onların istehsal etdikləri məhsullar qərb ölkələrində bu və ya digər hazır məhsulun istehsalında istifadə edilir. Bütün bunlarsa adı çəkilən ölkələrin qlobal dəyər zəncirində iştirak payının genişlənməsinə gətirib çıxarır.

Qlobal dəyər zəncirində bu və ya digər ölkənin payının artmasını şərtləndirən ən mühüm məqamlardan biri də biznes mühitinin yaxşılaşdırılmasıdır. Biznes mühiti əmtəə istehsalçılarının iqtisadi resurslara çıxış imkanlarının genişləndirilməsini özündə ehtiva etməklə yanaşı, eyni zamanda kreditləşmənin şərtlərinin yaxşılaşdırılmasını, iqtisadiyyatın investisiyalaşdırılmasını, bundan əlavə, əmtəə istehsalçılarına məxsus torpaq resurslarından səmərəli istifadə edilməsini, əmlakın və torpağın qeydiyyatını və digər bu kimi amilləri

ISSN 2310-4104 E-ISSN2790-5799
10.30546/2790-5799.4.2024.048

nəzərdə tutur. Son zamanlar biznes mühitinin yaxşılaşdırılması prosesinə ekoloji amillər, ilk növbədə, yaşıl iqtisadiyyatın elementləri də daxil olmaqdadır. Fikrimizcə, yaşıl iqtisadiyyat və yaşıl texnologiyalar nə qədər sürətlə inkişaf edərsə, bu da qlobal dəyər zəncirinin strukturunda yaşıl dəyər zəncirin payının daha da genişlənməsinə gətirib çıxara bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Анализ глобальных цепочек в моделях международной торговли: Учебник / Игнатенко, В.В. Идрисова, Ю.О. Литвинова. – 2017 (126 с.).

2. Майкл Портер «Конкурентное преимущество» перевод Калинина Э.Ю. Москва, 2016. (715 с.).

3. OECD. Interconnected Economies and WTO. Database & report. - 2009.

4. https://www.wto.org/english/res_e/statis_e/miwi_e/countryprofiles_e.htm (дата обращения 11.12.2016).

5. Interconnected Economies Benefiting from Global Value Chains. Synthesis Report. Paris, OECD. 2013. 54 p. Available at: https://www.oecd.org/sti/ind/interconnected-economies-GVCs-synthesis.pdf (accessed 12.10.2020).

6. Trade in Value Added (TIVA) Database 2018 Paris, OECD, 2018. Available at: https://www.oecd.org/sti/ind/measuring- trade-in-value-added.htm (accessed 12.10.2020).

7. Stringer C., Ge G. New Zealand agri-business investment in South America: A global value chain perspective // The Journal of Globalization, Competitiveness and Governability. 2010. Vol. 4. No. 3. P. 84-101. DOI: 10.3232/GCG.2010.V4.N3.05.

8. World Development Report 2020. Trading for Development in the Age of Global Value Chains. Washington, DC: World Bank: URL: https://www.worldbank.org/en/publication/wdr2020.

9. Рейтинг стран мира по индексу ведения бизнеса (Doing Business), World Bank Group, 2020.

10. A.F.Abbasov, İqtisadi inkişafın müasir meylləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər. Monoqrafiya. Bakı, 2024, 576 s., s. 117-118.

11. Белова Е.А., Жевтун И.Ф., Карбышев А.В. «Зеленые» технологии в логистике и управлении цепями поставок // Вестник Академии знаний. 2021. № 43 (2). С. 51-57.

12. Прудникова А.А., Мудрецов А.Ф. «Зеленая экономика» как драйвер устойчивого развития // Экономика и математические методы. 2020. Т. 56. № 2. С. 32-39.

13. Distribution of greenhouse gas emissions worldwide in 2022, by major emitter [Электронный ресурс] // Режим доступа: URL: https://www.statista.com/statistics/500524/worldwide-annual-carbon-dioxide-emissions-by-select-country/ (дата обращения: 18.12.2023).

## ФАКТОРЫ УЛУЧШЕНИЯ БИЗНЕС-СРЕДЫ В ГЛОБАЛЬНОЙ ЦЕПОЧКЕ СТОИМОСТИ

### Резюме

**Цель исследования**. Он состоит из проведения исследований в направлении улучшения бизнес-среды в глобальной цепочке создания стоимости, определения приоритетов улучшения бизнес-среды, а также определения роли и места этих приоритетов в глобальной цепочке создания стоимости.

**Методика исследования.** В ходе исследовательской работы использовались методы аналитического обобщения.

**Прикладное значение исследования.** Глобальная цепочка создания стоимости отражает эффективную организацию всех процессов от производителя к производителю. Улучшение деловой среды во всех сферах, входящих в глобальную цепочку создания стоимости, не только создает благоприятные условия для повышения конкурентоспособности производимой продукции, но и служит диверсификации экономики. В связи с этим практическая значимость исследования может быть применена к совершенствованию бизнес-среды для повышения конкурентоспособности предприятий независимо от формы собственности.
**Результаты исследования.** Формирование эффективных экономических отношений во всех сферах глобальной цепочки создания стоимости, предоставление возможностей производителям и потребителям использовать рынок на доступном уровне, определение направлений устранения вредных проявлений, происходящих в бизнес-среде.
**Научная новизна исследования.** Исследовано место и роль глобальной цепочки создания стоимости в глобальной конкурентной среде, выявлены факторы, определяющие улучшение бизнес-среды на всех этапах глобальной цепочки создания стоимости, причины, препятствующие улучшению бизнес-среды. в развивающихся странах на этапах глобальной цепочки создания стоимости выявлены и отмечены направления их устранения.

**Ключевые слова:** глобализация, глобальная конкурентная среда, глобальная цепочка создания стоимости, бизнес-среда, направления улучшения деловой среды, конкурентоспособность.

## FACTORS FOR IMPROVING THE BUSINESS ENVIRONMENT IN THE GLOBAL VALUE CHAIN

## SUMMARY

**The purpose of the study.** It consists of conducting research in the direction of improving the business environment in the global value chain, determining the priorities for improving the business environment, and determining the role and place of those priorities in the global value chain.
**Research methodology.** Analytical generalization methods were used during the research work.
**Applied significance of the study.** The global value chain reflects the efficient organization of all processes from the producer to the producer. Improving the business environment in all spheres included in the global value chain not only creates favorable conditions for increasing the competitiveness of the manufactured product, but also serves the diversification of the economy. In this regard, the practical importance of the research can be applied to the improvement of the business environment to increase the competitiveness of enterprises regardless of ownership.
**Results of the study.** Forming effective economic relations in all spheres of the global value chain, providing opportunities for producers and consumers to use the market at an accessible level, and determining directions for eliminating harmful manifestations occurring in the business environment.
**Scientific novelty of the research.** The place and role of the global value chain in the global competitive environment has been investigated, the factors that determine the improvement of the business environment at all stages of the global value chain have been identified, the reasons that prevent the improvement of the business environment in developing countries at the stages of the global value chain have been identified and the directions for their elimination have been noted.

**Keywords:** globalization, global competitive environment, global value chain, business environment, business environment improvement directions, competitiveness.

*Məqalə daxil olmuşdur: 12.12.2024*
*Təkrar işləməyə göndərilmişdir: 18.12.2024*
*Çapa qəbul edilmişdir: 28.12.2024*

*Дата поступления статьи в редакцию: 12.12.2024*
*Отправлено на повторную обработку: 18.12.2024*
*Принято к печати: 28.12.2024*

*The date of the admission of the article to the editorial office: 12.12.2024*
*Send for reprocessing: 18.12.2024*
*Accepted for publication: 28.12.2024*